**Arifli A.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.45-52**
**UOT:34;342;342.7**

# İnsan hüquqlarının tədqiqatında yeni yanaşmalar

**Xülasə:** Bu məqalədə müəllif qloballaşmanın, həmçinin yeni tendensiyaların meydana gəlməsinin cəmiyyətin hər bir sahəsinə təsir göstərdiyi kimi insan hüquqlarından yan keçmədiyini qeyd etmişdir. Müəllif həmçinin məqalədə bəşər tarixi yarandığı zamandan mövcud olan insan hüquqlarının aktuallığını qeyd etməklə yanaşı, meydana çıxmış tendensiyaların, yeni yanaşmaların insan hüquqlarına olan müsbət və mənfi tərəflərini qeyd etmiş və bu çağırışların insan hüquqlarna mənfi təsirini azaltmaq üçün müvafiq tövsiyələr vermişdir.

**Açar sözlər:** insan hüquqları; silahlı münaqişələr; deqradasiya; süni intellekt; korporasiya; aktor; konvensiya; presedent.

İnsan hüquqları təbiət kimidir çünki onlar pozula bilər, eyni zamanda insan hüquqları ruh kimidir çünki onlar məhv edilə bilməz.

İnsan hüquqlarının qorunması qloballaşma prosesinin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Bu məqalədə müasir beynəlxalq münasibətlər sferasında ən aktual məsələlərdən biri sayılan insan hüquqları sahəsində aparılan elmi tədqiqatların nəzəri və praktiki aspektdən rolu araşdırılır, həmçinin aktual olan bir sıra yeni yanaşmaların (çağırışların) insan hüquqlarına mənfi təsirlərinin minimum həddə çatdırılması üçün müvafiq tövsiyələr irəli sürülür.

İlk öncə insan hüquqları sahəsində aparılmış tədqiqatlara nəzər salaq. Bəşər tarixi boyunca mövcud olan insan hüquqları sahəsində aşağıda adları qeyd edilən 2 istiqamət üzrə tədqiqatlar aparılmışdır:

1. Elmi-nəzəri tədqiqatlar. Sözügedən tədqiqatlar adından da bəlli olduğu kimi alimlər, elmi tədqiqat institutları, universitetlər və s. tərəfindən aparılır və nəticədə məqalələr, kitablar, elmi doktrinalar tərtib edilir.

2. Elmi-praktiki tədqiqatlar. Bu növ tədqiqatlar beynəlxalq təşkilatlar, qeyri hökümət təşkilatları (bundan sonra - QHT) tərəfindən həyata keçirilirvə nəticəsində hesabatlar, tövsiyyələr hazırlanır.

İnsan hüquqlarının tədqiqatında hər zaman quldarlıq, müstəmləkəçilik, kişi və qadın bərabərliyi, irqi ayrı seçkilik kimi ənənəvi yanaşmalar mövcud olmuşdur. Müasir zamanda aktual olan çağırışların təsiri insan hüquqlarının tədqiqatından da yan keçməmişdir. Belə ki, qlobal çağırışlar insan hüquqlarının tədqiqinə birbaşa təsir edən aşağıda adları qeyd edilən yeni yanaşmaların yaranmasına dəlalət etmişdir:

-Müharibələr və silahlı münaqişələrin insan hüquqlarına təsiri;

- Ayrıseçkiliyin artmasının insan hüquqlarına təsiri;

♦ **Arifli Aygün Arif qızı -** “Hüquq və İnsan Haqları İnstitutu” PHŞ, Hüquqi tədqiqat şöbəsinin hüquq tədqiqatçısı (Azərbaycan). E-mail: arifli_a.009@mail.ru

- Siyasi qərarların insan hüquqlarına təsiri;
- Pandemiyaların insan hüquqlarına təsiri;
- Ətraf mühitin deqradasiyası;
- İqlim dəyişikliyi;
- Elmi və texnoloji tərəqqinin inkişafı (süni intellekt, rəqəmsallaşma və s.);
- Böyük korporasiyaların, QHT-lərin insan hüquqlarına təsiri.

**Silahlı münaqişələrin insan hüquqlarına təsiri:** Dünyanın nəhəng dövlətləri arasında gedən müharibələr ən çox insan hüquqlarına təsir göstərir. Belə ki, silahlı münaqişələr zamanı insanların yaşamaq, təhsil almaq, fikir azadlığı, hərəkət azadlığı, sağlamlıq, habelə şəxsi toxunulmazlıq kimi fundamental hüquqları birbaşa təsirə məruz qalır. Silahlı münaqişələr çox vaxt həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında insan itkisinə səbəb olur. İşgəncə, qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftardan azad yaşamaq hüququ silahlı münaqişələr zamanı tez-tez pozulur. Bundan başqa, mülki şəxslər silahlı münaqişələr zamanı, o cümlədən komendant saatı, nəzarət-buraxılış məntəqələri və maneələrin tətbiqi yolu ilə hərəkət azadlığının, həmçinin hökümətlər tərəfindən tətbiq edilən senzuralar nəticəsində ifadə azadlığının məhdudlaşdırılması halı ilə üzləşə bilərlər.

Ümid edirik ki, ən qısa zamanda silahlı münaqişələr, siyasi fikir ayrılıqları kimi aktual məsələlərdən insan hüquqlarının minimum təsirə məruz qalmasını önləmək üçün dünyanın nəhəng dövlətləri və beynəlxalq təşkilatlar ən optimal vasitələri müəyyən edəcəklər.

**Ətraf mühitin deqradasiyası və onun insan hüquqlarına təsiri:**

Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinə əsasən hər bir vətəndaşın sağlam ətraf mühitdə yaşamaq hüququ var [1, s.15]. Ətraf mühitin deqradasiyası və çirklənməsi insan hüquqlarına, o cümlədən yaşamaq və psixi və fiziki sağlamlıq hüquqlarına təhlükə yarada bilər. Sağlam qida, təmiz su və hava ilə təmin olunmaq hər bir insanın hüququdur. Lakin sağlam, davamlı ətraf mühit olmadığı şəraitdə bu hüquqların heç biri həyata keçirilə bilməz. Ətraf mühitin mühafizəsi adətən insan hüquqları müqavilələrinə daxil edilmir. Əksinə, ətraf mühitin mühafizəsi bu müqavilələrin həyat, qida, su və sağlamlıq hüquqları kimi qoruduğu hüquqlardan irəli gəlir [7].

Milli sərvətlərdən səmərəsiz istifadə edilməsi, suların çirkləndirilməsi, habelə zərərli maddələrin qanunsuz dövriyyəsi sonda ətraf mühitin deqradasiyasına səbəb olur.

Avropa İnsan Hüquqları Məhkəməsi (bundan sonra-AİHM) bir sıra qərarlarında (presedentlərdə) yuxarıda qeyd edilən səbəblərdən yaranmış ətraf mühitin deqradasiyanın insan hüquqlarını kobud şəkildə pozduğunu təsdiq etmişdir. Məsələn, 28 aprel 1993-cü tarixində Türkiyənin Ümraniyə adlanan ərazisində yerləşən yoxsul evlərinin yaxınlığında olan zibilxanada metan qazının partlayışı nəticəsində baş vermiş torpaq sürüşməsi nəticəsində ərizəçi türk vətəndaşı olan Öneryıldızın 9 ailə üzvü ilə yanaşı 39 nəfər həlak olmuş, 13 yoxsul evi (daxma) uçqun altında qalmışdır. Nəticədə AİHM 30 noyabr 2011-ci il tarixli, 48939/99 nömrəli "Önəryıldız Türkiyəyə qarşı" qərarı ilə Avropa İnsan Hüquqları Konvensiyasının (bundan sonra-AİHK) 2-ci maddəsi (Yaşamaq hüququ), 13-cü maddəsi (Səmərəli hüquqi müdafiə vasitələr) və konvensiyanın 1 saylı əlavə protokolunun 1-ci maddəsinin (Mülkiyyətin müdafiəsi) pozuntusunu tanımışdır [8].

Bundan başqa, ətraf mühitin deqradasiyasının insan hüquqlarına birbaşa təsiri dünyanın bir sıra nüfuzlu alimlərinin, tədqiqatçılarının tədqiqat mövzusu olmuşdur. Belə ki, türk alimi Arslan K.Berkayın "Ətraf Mühitə Transsərhəd Zərər Kontekstində İnsan Hüquqları Müqavilələrinin Ekstra-Ərazi Tətbiqi" adlı məqaləsində ətraf mühitə transsərhəd zərərin vurulması hallarında insan hüquqları müqavilələrinə əsasən yurisdiksiya məsələsini nəzərdən keçirir. Müqavilənin

yazılmasında məqsəd ətraf mühit və transsərhəd zərərin təriflərini, eləcə də ekoloji transsərhəd zərərə tətbiq edilən beynəlxalq ekoloji hüquq çərçivəsində müvafiq qaydaları müəyyən etməkdir. Bundan başqa, müəllif məqalədə ekoloji transsərhəd zərərlər nəticəsində insan hüquqlarının pozulduğunu və bunun qarşısını almaq üçün dövlətlərin öz üzərinə götürdükləri öhdəlikləri icra etmələrini təklif edir [ 2, s. 8-9].

**İqlim dəyişikliyi və onun insan hüquqlarına təsiri:**

Aktual çağırışlardan biri sayılan iqlim dəyişikliyi prosesinin öyrənilməsi, bu prosesin özünün və onun fəsadlarının insan hüquqlarına təsirinin təhlil edilməsi və nəzərdən keçirilməsi zərurətini yaratmışdır. İqlim dəyişikliyi insanların yaşamaq, fiziki və psixi sağlamlıq, şəxsi və ailə həyatına hörmət kimi fundamental hüquqlarına birbaşa təsir edir. İqlim dəyişikliyi təkcə ekoloji dəyişikliklərə səbəb olmur, həm də bütün dünyada cəmiyyətin sosial, iqtisadi, siyasi, mədəni və hüquqi aspektlərinə təsir göstərir [ 3, s.1].

BMT çərçivəsində qəbul edilən sənədlərdə, həmçinin alimlər tərəfindən yazılan məqalələrdə iqlim dəyişikliyinin insan hüquqlarına təsirinin əsas məqamları qeyd edilmişdir. Məsələn, Knox, John H. "İqlim dəyişikliyi və insan hüquqları" barədə yazdığı məqalədə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının 2009-cu il tarixli Hesabatına istinad etməklə iqlim dəyişikliyinin qlobal əsasda insan hüquqlarına yaratdığı təhlükəni təsvir edir. Hesabatda qeyd edilir ki, iqlim dəyişikliyi insan hüquqlarının həyata keçirilməsi üçün açıq-aşkar təsirlərə malikdir və bu cür təsirlər ciddi şəkildə insan hüquqlarının pozulması kimi qiymətləndirilib [3, s.33-34 ].

Bundan başqa, BMT çərçivəsində qəbul edilən bir sıra sənədlərdə, habelə tərtib edilmiş hesabatlarda proqnozlaşdırılan iqlim dəyişikliklərinin ekosistemlərə, təbii ehtiyatlara, fərdlərin insan hüquqlarının həyata keçirilməsinə ciddi təsir etməsi xüsusilə vurğulanır. Belə ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflərinin iştirakı ilə 2010-cu ildə Meksikada keçirilən konfransın nəticələrinə dair hesabatda vurğulanır ki, "Tərəflər iqlim dəyişikliyi ilə bağlı bütün tədbirlərdə insan hüquqlarına tam hörmətlə yanaşmalıdırlar" [4 ].

**Elmi və texnoloji tərəqqinin inkişafının (süni intellekt, rəqəmsallaşma və s.) insan hüquqlarına təsiri.**

Elmi və texnoloji tərəqqinin inkişafının ən bariz nümunəsindən biri əsrimizin ən böyük texnoloji çağırışlarından sayılan süni intellektdir. O, cəmiyyət və fərdlər üçün böyük imkanlar təqdim etməklə yanaşı, həm də Avropa Şurası tərəfindən qorunan standartlara - insan hüquqlarına, demokratiyaya və qanunun aliliyinə təsir göstərir. Süni intellektin alqoritmlərindən istifadə bir sıra hüquqlarımıza mənfi və ya müsbət təsir göstərə bilər. Süni intellekt insanların vaxtına qənaət etmək, ifadə azadlıqlarını artırmaq kimi müsbət cəhətlərə malik olsa da, onun bir sıra mənfi cəhətləri mövcuddur:

- Təhlükəsizlik problemi
- Şəxsi toxunulmazlıq və bərabərlik hüququna müdaxilə
- Bir sıra peşələrin yox olması və işsizlik problemi
- Cəmiyyətin "dehumanizasiya" riski və s.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının 13 sentyabr-01 oktyabr 2021-ci il tarixli hesabatında süni intellektlə bağlı məsələlərə də toxunulub. Hesabatda hökumətlərə, biznes müəssisələrinə, həmçinin beynəlxalq təşkilatlara süni intellektdən, o cümlədən avtomatlaşdırılmış qərar qəbuletmə və maşın öyrənmə texnologiyalarından istifadə nəticəsində şəxsi toxunulmazlıq hüququnun və digər insan hüquqlarının səmərəli həyata keçirilməsi zamanı yaranan problemlərin

dairəsini müəyyən etmək, habelə onların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi tövsiyə olunur.

Süni intellektin insan hüquqlarına təsiri AİHM-in qərarlarında da öz təsdiqini tapmışdır. Məsələn, Cengiz və başqaları Turkiyəyə qarşı 01 dekabr 2015-ci il tarixli 48226/10 və 14027/11 nömrəli işdə *(Ərizəçinin YouTube-a girişinin qadağan edilməsi)* AİHK-in10-cu *(ifadə azadlığı)* maddəsinin pozuntusu AİHM tərəfindən tanınmışdır [9].

Bundan başqa, professor S.Yuval "Rəqəmsal hüquqlar və beynəlxalq insan haqları hüququnun xarici sərhədləri" adlı məqaləsində rəqəmsal əsrin yaratdığı çağırışlara əsas normativ və institusional cavabların mövcud beynəlxalq insan haqları hüququ çərçivəsinin əsas xüsusiyyətlərinin nə dərəcədə uyğunlaşdığını və ya onlarla qarşılıqlı əlaqədə olduğunu araşdırır. Həmçinin müəllif öz məqaləsində iddia edir ki, insan haqları hüququ çərçivəsi qismən rəqəmsal insan hüquqları ilə qarşılıqlı əlaqəsi səbəbindən artıq dəyişir. Bu isə öz növbəsində rəqəmsal əsrdə insan hüquqlarının təşviqi üçün yeni imkanlar yaradır [5, s.461-472 ].

**Böyük korporasiyaların, yeni aktorların (QHT-lərin) insan hüquqlarına təsiri:**

Beynəlxalq aləmdə böyük korporasiyalar, QHT-lər insan hüquqları sahəsində vacib aktorlar sayılır. Həqiqətən də, müasir cəmiyyətdə QHT-lər vətəndaş cəmiyyətinin ünsürü olmaqla yanaşı, insan hüquqlarının və azadlıqlarının qorunmasında zəruri mexanizm kimi qarşımıza çıxır. Çünki QHT-lər ilk növbədə birləşmə azadlığının təzahürüdür. Böyük korporasiyaların, habelə QHT-lərin yaranması və sayının surətlə artması iqtisadi inkişafa, yeni-yeni iş yerlərinin yaradılmasına və texnoloji innovasiyalara öz tövhəsini verməklə yanaşı aşağıda adları qeyd edilən insan hüquqları üzrə öz mənfi təsirləri göstərməkdə davam edir:

- Əmək hüquqları üzrə
- Ətraf mühitə və iqlim dəyişikliyinə təsir
- İnformasiya əldə etmək və ifadə azadlığı
- Hökumət əlaqələri

Korporasiyaların və QHT-lərin mövcudluğunun insan hüquqların təsiri hər zaman alimləri və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Belə ki, italyan eksperti Ruggy tərəfindən tərtib edilmiş Təlimat BMT-nin İnsan hüquqları Şurası tərəfindən qəbul edilmişdir [6]. Sözügedən Təlimatda biznes və insan hüquqları üzrə rəhbər prinsiplərin dairəsi müəyyən edilməklə yanaşı, iri korporosiyalar, QHT-lər tərəfindən insan hüquqları pozulduğu halda dövlətlərin üzərinə onları məsuliyətə cəlb etmək öhdəliyi qoyulmuşdur.

Böyük şirkətlər ələxsus da mühafizə xidməti göstərən şirkətlər xidmət vəzifələrini düzgün icra etmədikləri zaman birbaşa insan hüquqlarının pozulmasına səbəb ola bilirlər. Məsələn, dünyanın ən nəhəng mühafizə şirkətlərindən biri sayılan "Blackwater" təhlükəsizlik şirkətinin dörd işçisi, 2007-ci ildə Bağdadın Nisur meydanında ABŞ-ın diplomatik nümayəndə heyətinin maşın karvanını qoruyarkən mülki vətəndaşlara atəş açması nəticəsində 14 şəxsin ölümünə, 20-dən çox dinc sakinin yaralanmasına səbəb olmuşdur. Hadisə böyük səs-küyə səbəb olduğundan dörd nəfər "Blackwater" üzvü həbs edilmiş, onlardan biri ömürlük, üçü isə 30 il müddətinə həbs cəzasına layiq görülmüşdür. Bu qətliamdan sonra İraq hökuməti "Blackwater"in İraq ərazisində fəaliyyətini qadağan etdi [11].

İnsan hüquqlarının tədqiqatı dəqiqliyi, etik mülahizələri və aktuallığı təmin etmək üçün hərtərəfli və sistemli metodologiya tələb edir. Belə ki, insan hüquqlarının araşdırılmasında ümumi metodlarla (hüquqi-formal, müqayisəli təhlil, tarixi, hüquqi eksperiment, hüquqi proqnozlaşdırma və s.) yanaşı. aşağıda qeyd olunan yeni yanaşmaları və texnologiyaları özündə ehtiva edən metodologiyadan da istifadə olunur.

1. İnsan hüquqlarının monitorinqi üçün süni intellekt (*chartgpt – openai*)
2. Rəqəmsal texnologiyalar (*sample size calculator*)
3. Ağıllı (smart) müqavilələr
4. Data analitikası (*cambridge analytica*)
5. Blokçeyn texnologiyası.

Yuxarıda adları çəkiləndən başqa, insan hüquqlarının tədqiqatı metodologiyasında mühüm yeniliklərdən biri olan peyk şəkilləri və geoməkan analizi insan hüquqları pozuntularını izləmək və sənədləşdirmək üçün istifadə edilən effektiv vasitədir. AİHM də bir sıra qərarların qəbulu zamanı geoməkan analizindən istifadə etmişdir (Məsələn, Sarkisyan Azərbaycana qarşı 16 iyun 20150-c il tarixli, 40167/06 nömrəli iş) [10].

Nəticə etibarı ilə, insan hüquqları tədqiqatı sahəsində davam edən nəzəri və elmi-texniki inkişafa baxmayaraq bəşəriyyət hələ də, bir sıra problemlərlə üzləşir. Lakin bütün bunlara baxmayaraq insan hüquqları dəyər olaraq dəyişilməz qalır və heç zaman öz aktuallığını itirmir. İnsan hüquqları sahəsində yeni tədqiqatlar daima AİHM-in təcrübəsində, beynəlxalq təşkilatların qərarlarında, həmçinin hüquqi doktrinada öz əksini tapacaqdır.

Bu məqalədə qeyd edilən çağırışlardan ən aktualları sayılan süni intellekt və rəqəmsal texnologiyaların (smart müqavilələr, blokçeyn texnologiyası) surətlə artan inkişafının insan hüquqlarına mənfi təsirini minimum həddə çatdırmaq üçün ölkəmizdə aidiyyəti qurumlar tərəfindən təhlükəsizlik tədbirləri daha da artırılmalı, insanların şəxsi toxunulmazlıq, bərabərlik hüquqlarının pozulmaması, habelə cəmiyyətdə antroposentrizmin itirilməsi riskinin qarşısının alınması yönündə görülən işlərin dairəsi genişləndirilməli, habelə bu istiqamətdə hüquqi baza formalaşdırılmalıdır.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Hüquq yayın evi, 2018. -91 s.

2. Arslan, Kazım Berkay. The Extraterritorial Application of Human Rights Treaties in the Context of Environmental Transboundary Harm // Public and Private International Law Bulletin, Vol. 42 Issue: 1, (2022). pp. 8-9

3. Knox, John H. Climate Change and Human Rights Law *Virginia Journal of International Law*, Vol. 50, No. 1 (2009) pp.33-34

4. "Summary report, 29 November-11 December 2010" Cancun Climate Change Conference- November 2010" The Earth Negotiations Bulletin IISD

5. Shany Yuval Digital Rights and the Outer Limits of International Human Rights Law *German Law Journal*, Vol. 24, Issue 3 (April 2023) pp. 461 – 472

6. Guiding Principles on Business and Human Rights: Implementing the United Nations "Protect, Respect and Remedy" Framework (UN Doc. A/HRC/17/31, 21 mart 2011)

7. https://az.wikipedia.org/wiki/%c4%b0qlim_d%c9%99yi%c5%9fikliyi_v%c9%99_insan_h%c3%bcquqlar%c4%b1

8. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%22%c3%b6nery%c4%b1ld%c4%b1z%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-67616%22]}

9. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%22cengiz%20and%20others%20v.%20turkey%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-159188%22]}

10. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%2240167/06%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-189877%22]}
11. https://libre.az/abs-in-gizli-ordusu-blackwater/

**Arilfi A.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.45-52**
**UDC:34;342;342.7**

## New Approaches in Human Rights Research

**Abstract:** In this article, the author noted that globalization, as well as the emergence of new trends, does not bypass human rights, as they affect every area of society. The author also noted the relevance of human rights that have existed since the beginning of human history, noted the positive and negative aspects of emerging trends, new approaches to human rights and gave appropriate recommendations to reduce the negative impact of these challenges on human rights.

**Key words:** human rights; armed conflicts; degradation; artificial intelligence; corporation; actor; convention; precedent.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Huquq Yayin evi Publ., 2018, 91 p. (in Azerbijani).
2. Arslan, Kazım Berkay. The Extraterritorial Application of Human Rights Treaties in the Context of Environmental Transboundary Harm // Public and Private International Law Bulletin, Vol. 42 Issue: 1, (2022). pp. 8-9
3. Knox, John H. Climate Change and Human Rights Law *Virginia Journal of International Law*, Vol. 50, No. 1 (2009) pp.33-34
4. “Summary report, 29 November-11 December 2010” Cancun Climate Change Conference-November 2010” The Earth Negotiations Bulletin IISD
5. Shany Yuval Digital Rights and the Outer Limits of International Human Rights Law *German Law Journal*, Vol. 24, Issue 3 (April 2023) pp. 461 – 472
6. Guiding Principles on Business and Human Rights: Implementing the United Nations “Protect, Respect and Remedy” Framework (UN Doc. A/HRC/17/31, 21 mart 2011)
7. https://az.wikipedia.org/wiki/%c4%b0qlim_d%c9%99yi%c5%9fikliyi_v%c9%99_insan_h%c3%bcquqlar%c4%b1
8. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%22%c3%b6nery%c4%b1ld%c4%b1z%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-67616%22]}
9. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%22cengiz%20and%20others%20v.%20turkey%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-159188%22]}

♦ **Arilfi Aygun Arif** - legal researcher of the Legal Research Department of the Institute of Law and Human Rights PLE, (Azerbaijan). E-mail: arifli_a.009@mail.ru

10. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%2240167/06%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-189877%22]}

11. https://libre.az/abs-in-gizli-ordusu-blackwater/

**Арифли А.А.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.45-52**
**УДК:34;342;342.7**

## Новые подходы в исследованиях в области прав человека

**Аннотация:** Отмечается, что глобализация, как и появление новых тенденций, не обходит стороной права человека, поскольку затрагивает все сферы жизни общества. Автор также отметил актуальность прав человека, существующих с начала человеческой истории, отметил положительные и отрицательные стороны возникающих тенденций, новых подходов к правам человека и дал соответствующие рекомендации по снижению негативного воздействия этих проблем на права человека.

**Ключевые слова:** права человека; вооруженные конфликты; деградация; искусственный интеллект; корпорация; актор; конвенция; прецедент.

## Библиография

1. Конституция Азербайджанской Республики. - Баку: Huquq Yayin evi, 2018. – 91 с. (на азерб. яз.).

2. Arslan, Kazım Berkay. The Extraterritorial Application of Human Rights Treaties in the Context of Environmental Transboundary Harm // Public and Private International Law Bulletin, Vol. 42 Issue: 1, (2022). pp. 8-9

3. Knox, John H. Climate Change and Human Rights Law *Virginia Journal of International Law,* Vol. 50, No. 1 (2009) pp.33-34

4. "Summary report, 29 November-11 December 2010" Cancun Climate Change Conference-November 2010" The Earth Negotiations Bulletin IISD

5. Shany Yuval Digital Rights and the Outer Limits of International Human Rights Law *German Law Journal*, Vol. 24, Issue 3 (April 2023) pp. 461 – 472

6. Guiding Principles on Business and Human Rights: Implementing the United Nations "Protect, Respect and Remedy" Framework (UN Doc. A/HRC/17/31, 21 mart 2011)

7. https://az.wikipedia.org/wiki/%c4%b0qlim_d%c9%99yi%c5%9fikliyi_v%c9%99_insan_h%c3%bcquqlar%c4%b1

8. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%22%c3%b6nery%c4%b1ld%c4%b1z%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-67616%22]}

♦ **Арифли Айгюн Ариф кызы** - научный сотрудник отдела правовых исследований, «Институт права и прав человека» ПЮЛ (Азербайджан). E-mail: arifli_a.009@mail.ru

9. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%22cengiz%20and%20others%20v.%20turkey%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-159188%22]}

10. https://hudoc.echr.coe.int/#{%22fulltext%22:[%2240167/06%22],%22documentcollectionid2%22:[%22grandchamber%22,%22chamber%22],%22itemid%22:[%22001-189877%22]}

11. https://libre.az/abs-in-gizli-ordusu-blackwater/